*Prezident seçkiləri qarşısında*

# QHT Əməkdaşlıq Alyansı Qəbələdə forum keçirib

Avqust ayının 30-da Qeyri Hökumət Təşkilatları (QHT) Əməkdaşlıq Alyansı Qəbələdə forum keçirib. Qəbələ Regional QHT-lərin Təlim və Resurs Mərkəzi ilə birlikdə keçirilən forumda rayonun yerli vətəndaş cəmiyyəti sektorunun təmsilçiləri, QHT rəhbərləri və təhsil, səhiyyə işçiləri, ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

Tədbirdə Qəbələ Regional QHT-lərin Təlim və Resurs mərkəzinin sədri Qalib Nəbiyev giriş sözü ilə çıxış etmişdir. O, qeyd etdi ki, QHT Əməkdaşlıq Alyansı Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə «2013-cü il Prezident seçkisinin monitorinqinin aparılması və vətəndaş cəmiyyəti institutlarının prosesdə iştirakının təşkili» layihəsinin icrasına uyğun forum keçirir. İlk olaraq, Şamaxı—İsmayıllı rayonlarında monitorinqlər keçirilib. Hazırda isə bu tədbir Qəbələdə keçirilməyə start verilib. Daha sonra Qalib Nəbiyev «Azad və Ədalətli seçkilər: demokratiyanın əsas qalası» mövzusunda keçirilən forumda çıxış etmək üçün QHT Əməkdaşlıq Alyansının həmsədri Rufiz Qonaqova söz verdi. O, bildirdi ki, bu gün ölkədə vətəndaş cəmiyyəti inkişaf edir və artıq əvvəlki illərlə müqayisə olunmaz dərəcədə güclüdür. Hesab edirik ki, vətəndaş cəmiyyəti institutları seçki prosesinə ümumi nəzarəti həyata keçirməklə seçki mühitinin, seçki rəqabətinin, seçki subyektlərinin fəaliyyətinin monitorinqini aparmaqla və obyektiv hesabatlarla seçkilər haqqında qərəzsiz rəy formalaşmasına yardım edə bilər. Belə ki, real və demokratik seçki mühiti ilə bağlı ictimaiyyətə, beynəlxalq təşkilatlara məlumatlar çatdırmaqla, ölkədə keçirilən seçkilərlə bağlı indiyə kimi formalaşmış fikrə alternativ qoymaq mümkündür. Bununla da əvvəlki seçkilərdən fərqli olaraq, uduzmuş tərəflərin nəticələrini tanıdığı azad və demokratik, ədalətli seçki şəraitinin ictimai rəyə çatdırılmasına nail olmaq mümkündür.



Alyans həmsədri daha sonra vurğuladı ki, bu gün biz ictimaiyyətin bütün təbəqəlrinin iştirakı ilə belə bir forum keçiririk. Hamımız əhalimizin seçkidə fəallıq göstərməsinə çalışmalıyıq. Bu, fəallıqla biz bir yerdə demokratik seçki mühitinə dəstək verəcək, seçkinin iştirakçısı olan siyasi qüvvələrin postseçki dövrü dialoqunun təməlinin formalaşmasında iştirak edicəyik. Vətəndaş cəmiyyəti sektoru fəallıq göstərməklə, şəffaf və demokratik seçkilərin keçirilməsi üçün birgə fəaliyyət göstərəcəkdir. Seçki prosesi, seçkidə iştirak edən siyasi qüvvələrə, namizədlərə bərabər rəqabət imkanlarının yaradılması haqqında həm ölkə ictimaiyyətinə, həm də beynəlxalq təşkilatlara düzgün məlumatlar çatdırılacaq. Təəssüf ki, bəzi beynəlxalq təşkilatlar ölkəmizə ikili münasibət sərgiləməkdə davam edir. İstər ümummilli problemimiz olan Dağlıq Qarabağ münaqişəsinin həllində, istərsə insan hüquqlarının vəziyyətinə dair onların yaydıqları açıqlamalarda belə hallar xarakterikdir.

Bu gün Azərbaycanda insan hüquqlarının vəziyyəti nə Ermənistandan, nə Gürcüstandan pis deyil, əksinə dəfələrlə yaxşıdır. Heç Avropa ölkələrinin özündən də geri qalmır. Bizim ölkədə 1 milyondan artıq insanın hüququ öz yurdyuvasından qovulmaqla pozulub. Ermənistanın təcavüzü nəticəsində torpaqlarımız işğal olunub, insan hüquqları pozulub. Amma bunu dilinə gətirməyən bəzi beynəlxalq təşkilatlar qeyri-dəqiq məlumatlar əsasında ölkəmizi hədəfə alır». Daha sonra Rufiz Qonaqov bildirib ki, vətəndaş cəmiyyəti sektorunun, QHT-lərin qarşısında duran əsas vəzifə seçkidə aktiv iştirak etməklə, ictimaiyyəti də seçkidə aktiv iştiraka səsləməkdir. Biz seçkidə iştirak etməklə, dövlətçiliyimizin möhkəmlənməsinə səs verməklə bu seçkiyə öz töhfəmizi verməliyik. Bununla da bütün dünyanı fakt qarşısında qoymalı olan, demokratik seçki nümunəsi göstərəcəyik!

Daha sonra QHT Əməkdaşlıq Alyansının digər həmsədri Rafail Becənov, Demokratik Cəmiyyət və Qadın Hüquqlarının Müdafiəsi İçtimai Birliyinin sədri Mehriban Abdullayeva, Qadınların Sosial Problemlərinin Araşdırılması İctimai Birliyinin sədri Rəsmiyyə Vahidova və digər yerli QHT nümayəndələri çıxış etmişlər. Çıxışlar İctimaiyyəti seçkilərdə aktivlik göstrməyə, vətəndaş cəmiyyəti sektorunu seçkilərin şəffaf və demokratik keçirilməsi üçün səyi birləşdirməyə çağırıblar.

Forumu Qalib Nəbiyev yekunlaşdırdı.

**Aslan CƏLİLOV.**
**Foto S. Umuyevindir.**

## Əhalinin gəlirləri artıb

Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-iyul ayları ərzində ölkə əhalisinin hər nəfərə düşən gəlirləri 2040,8 manat təşkil edib. Bu, keçən ilə nisbətən 5,8 faiz çoxdur. Əhalinin nominal gəlirləri 2012-ci ilin eyni dövrü ilə müqayisədə 7,2 faiz artaraq 18,9 milyard manat olub.

Bu dövr ərzində gəlirlərin 68,9 faizi son istehlaka, 9,3 faizi vergilər, sosial sığorta və könüllü üzvülük haqlarının ödənilməsinə sərf edilib. 20,2 faizi isə əmanətlərin və kapitalın artırılmasına yönəldilib. Əhalinin sərəncamında qalan gəlirlər 17,2 milyard manat təşkil edib ki, bu da əvvəlki ilin eyni dövrünə nisbətən 7, 2 faiz çoxdur.

*Futbol*

## Doğma meydançada qələbə

Ölkə çempionatının V turunda öz meydançasında «Xəzər Lənkəran»ı qəbul edən «Qəbələ» rəqib üzərində 2:0 hesablı qələbə qazanaraq yarış cədvəlinin dördüncü pilləsində yerini qorumuşdur. Toplar oyunun birinci və ikinci hissələrində vurulmuşdur. Eyni gündə keçirilən digər oyunda isə «Bakı» çempion «Neftçi»ni 3:0 hesabla məğlubiyyətə uğratmışdır.

Turun qalan oyunları belə nəticələnmişdir: «İnter»—«Simurq»—1:2, «Sumqayıt»—«Rəvan»—0:1, «Qarabağ»—AZAL—0:1.

**Miri RƏHİMOV.**

## Topaz Premyer Liqasının təqvimi

**VI tur**

**12 sentyabr (cümə axşamı)**

26. "Neftçi" (Bakı)—"İnter" (Bakı)

**13 sentyabr (cümə)**

27. "Rəvan" (Bakı)—"Qarabağ" (Ağdam)

**14 sentyabr (şənbə)**

28. "Xəzər Lənkəran" (Lənkəran)—"Bakı" (Bakı)

**15 sentyabr (bazar)**

29. "Simurq" (Zaqatala)— "Sumqayıt" (Sumqayıt)

30. AZAL (Bakı) – "Qəbələ" (Qəbələ)


## ELANLAR

Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən 13 dekabr 2001-ci il tarixdə İsgəndərov İmran Qurbənəli oğlunun adına verilmiş JN 761 (kodu 40608018) **Torpağa mülkiyyət hüquna datr Dövlət aktı itdiyi üçün** etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarla Vəndam qəsəbə sakini Səfərova Əntiqə Cümü qızının adına verilən **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** (JN-1523A, Kodu 40600048) **itdiyi üçün** etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarla Vəndam qəsəbə sakini Səfərov Varis İmam oğlunun adına verilmiş **Torpağın Mülkiyyətə verilməsinə dair Şəhadətnamə** (JN-1529A, kodu 40600048) **itdiyi üçün** etibarsız sayılır.

Qəbələ Aqrar İslahat Komissiyası tərəfindən 28 oktyağr 1998-ci il tarixli 19 saylı qərarla Vəndam qəsəbə sakini Səfərov Elçin Rasim oğlunun adına verilmiş **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** (JN-2154A, kodu 40600048) itdiyi üçün etibarsız sayılır.

Daşınmaz Əmlakın Dövlət Reystri Xidmətinin Qəbələ Ərazi İdarəsi tərəfindən 20 aprel 2012-ci il tarixdə Vəndam Qəsəbə (əvvəllər kənd) sakini Fətəliyev Şamil İsa oğlunun adına verilmiş AA 012056 №-li (reystr № 406013010452) 0.1583 hektar **Torpaq sahəsinin planı və ölçüsü sənədi itdiyi üçün** etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 25 iyun 1998-ci il tarixli 11 saylı qərarla Bum qəsəbə sakini Məmmədov Müəllif Canı oğlunun və ailə üzvlərinin adına verilmiş **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** (JN 750A, kodu 40800038) **itdiyi üçün** etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 noyabr 1997-ci il tarixli 26 saylı qərarla Daşca kənd sakini Mahmudova Cavahir Əziz qızının adına verilmiş JN-079F (kodu 40608028) №-li **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə itdiyi üçün** etibarsız sayılır.


**ALLAH RƏHMƏT ELƏSİN**

«Qəbələ» qəzetinin kollektivi iş yoldaşları **Səhrab Umuyevə,** yaxın qohumu

**VALEH HƏSƏNOVUN**

vəfatı ilə əlaqədar dəin hüznlə başsağlığı verir.


*Məsul katib N. R. Atakişiyev.*

*TƏSİSÇİLƏR:*
**Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.**
*Məsul növbətçi N. R. Atakişiyev.*

**ÜNVANIMIZ:**
**AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.**
**Redaktor: (024)20 5-19-14.**
**Ümumi: (024)20 5-15-56.**
**e-mail: gabalanews@mail.ru**

**Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.**
**«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149**
**VÖEN: 4400103601**
**Lisenziya AV № 022611**

**Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.**
**Tiraj 2300.**
**Oxucu məktubları geri qaytarılmır.**